# ŞUŞA VƏ ŞUŞAƏTRAFI ƏRAZİLƏRDƏ İTMƏK TƏHLÜKƏSİNDƏ OLAN ALİ BİTKİLƏR HAQQINDA

**Aydın Əsgərov[1], Günel Quliyeva[2], Kəmalə Məmmədyarova[3]**

*[1] Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu, askerov1@mail.ru*
*[2,3] Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitutu*

Azərbaycan Respublikasının "Qırmızı kitab"ının hər iki nəşrinə daxil edilmiş 266 nadir və nəsli kəsilməkdə olan ali bitki növlərinin əksəriyyətinə Şuşa və Şuşaətrafı ərazilərdə rast gəlinir: Şuşa gəvəni, Şuşa xaşası, Xarıbülbül adı ilə məşhur olan Qaş səhləbi, itburnu cinslərinin bir sıra növləri və s. Həmin ərazilərdən təsvir olunan btkilərdən Fabakimilər (*Fabaceae*), Qərənfilçiçəklilər (*Caryophyllaceae*), Asterçiçəklilər (*Asteraceae*), Kərəvüzkimilər (*Apiaceae*) fəsilələrinin nümayəndələri üstünlük təşkil edir.

İşğal altından azad olunmuş ərazilərdə əvvəllər bizə məlum olan nadir, nəsli kəsilməkdə olan, endem, subendem bitkilər 59 fəsilə, 140 cins, 224 növ təşkil edir ki, bunlardan 27 fəsilə, 47 cins üzrə 55 növ Şuşa və Şuşaətrafı rayonlarda rast gəlinir. Əlbəttə, bu bitkilər bizim işğaldan əvvəl həmin ərazilərdə apardığımız tədqiqatlara və mövcud ədəbiyyata əsaslanır. Düşünürük ki, yaxın gələcəkdə yazılacaq "Qarabağın Qırmızı kitabı"na bu növlər bütövlükdə daxil ediləcəkdir (cədvəl).

**Cədvəl.** Şuşa və ətraf ərazilərdə rast gəlinən bitkilər

| **Fəsilə** | **Cins** | **Növ sayı** |
|---|---|---|
| *Alliaceae* J. Agardh | *Allium* L. | 1 |
| *Amarillidaceae* J.St. – Hil (incl. *Ixioliriaceae* Nakai) | *Sternbergia* Waldst. et Kit. | 1 |
| *Apiaceae* Lindl. | *Astrantia* L. | 1 |
| *Asteraceae* Dumort | *Centaurea L. (incl. Tetramorphae, Microlophus,Sosnovskya, Amblyopogon, Rhaponticoides)* | 1 |
| | *Cousinia* Cass. | 1 |
| | *Helichrysum* Mill. | 1 |
| | *Podospermum* DC. | 2 |
| | *Psephellus* Cass. | 1 |
| | *Tragopogon* L. | 1 |
| | *Scorzonera* L. | 1 |
| *Aquifoliaceae* Bartl. | *İlex* L. | 1 |
| *Brassicaceae* Burnett | *Cardamine* L. | 1 |
| *Campanulaceae* Juss. | *Asyneuma* Griseb. et Schenk | 1 |
| *Caryophyllaceae* Juss. | *Cerastium* L. | 1 |
| | *Dianthus* L. | 2 |
| *Celtidaceae* Link | *Celtis* L. | 1 |
| *Cupressaceae* Rich. ex Bartl. | *Juniperus* L. | 1 |
| *Dryopteridaceae* R.- C. Ching. | *Dryopteris* Adans. s. str. | 1 |
| *Euphorbiaceae* Juss. | *Euphorbia* L. | 1 |
| *Fabaceae* Lindl. | *Astragalus* L. | 2 |
| | *Onobrychis* Hill | 1 |
| | *Trifolium* L. | 1 |
| *Hyacinthaceae* Batsch | *Scilla* L. | 1 |
| *İridaceae* Juss. | *İris L. (İridodictyum Rodionenko, Juno Tratt.)* | 1 |
| *Liliaceae* Juss. | *Tulipa* L. | 2 |
| *Malvaceae* Juss. | *Alcea* L. | 1 |

| | | |
|---|---|---|
| *Moraceae* Gaudich | *Ficus* L. | 1 |
| *Orchidaceae* Juss. | *Limodorum* Boehm. | 1 |
| | *Ophrys* L. | 2 |
| | *Platanthera* Rich. | 1 |
| *Pinaceae* Lindl. | *Pinus* L. | 1 |
| *Poaceae* Barnhart | *Colpodium* Trin. | 1 |
| | *Triticum* L. | 1 |
| *Ranunculaceae* Juss. | *Aconitum* L. | 1 |
| | *Delphinium* L. | 2 |
| | *Pulsatilla* Hill | 1 |
| *Rosaceae* Juss. | *Amygdalus* L. | 1 |
| | *Crataegus* L. | 1 |
| | *Rosa* L. | 2 |
| | *Padus* Hill | 1 |
| *Rubiaceae* Juss. | *Galium* L. | 1 |
| *Rutaceae* Juss. | *Haplophyllum* Adr. Juss. | 1 |
| *Scrophulariaceae* Juss. | *Digitalis* L. | 1 |
| | *Scrophularia* L. | 1 |
| | *Verbascum* L. (*Celsia* L.) | 1 |
| | *Veronica* L. | 2 |
| *Taxaceae* S.F. Gray | *Taxus* L. | 1 |

Azərbaycan florasında rast gəlinən bitkilərdən 15 fəsilə, 27 cins, 33 növ Şuşa və Şuşa ətrafı rayonlardan, o cümlədən, 10 fəsilə, 11 cins, 12 növ Şuşadan təsvir olunub. Bu növlər arasında çox sayda dərman, qida, vitaminli, boya, yem və digər faydalı bitkilər vardır. Bütövlükdə Şuşa və Şuşaətrafı rayonlardan təsvir olunan növlərin siyahısı aşağıda verilir:

*Alliaceae, ○Allium kunthianum, ○A. szovitsii; Amaryllidaceae, Sternbergia fischerana; Apiaceae, Ferulago setifolia, Pastinaca armena, Pimpinella peucedanifolia, Szovitsia callicarpa; Asteraceae, ○Cirsium aduncum, ○C. szovitsii, Echinops szovitsii, ○Hieracium sericicaule, H.syreistschikovii, ○Jurinea spectabilis; Brassicaceae, ●Erysimum strictisiliquum; Caryophyllaceae, ○Cerastium szowitsii, ○Gypsophila szovitsii; Corylaceae, Carpinus oxycarpa, ○C.x schuschaensis, Corylus cervorum; Crassulaceae, Rosularia radiciflora; Euphorbiaceae, ○ Euphorbia ledebourii; Fabaceae, ○Astragalus brachypetalus, ○A.karabaghensis, A. schuschensis, ●Onobrychis schuschajensis; Lamiaceae, Nepeta transcaucasica; Malvaceae, Alcea sachsachanica; Ranunculaceae, ○Delphinium foetidum; Rosaceae, Amygdalus fenzliana, ○ Crataegus szovitsii; Scrophulariaceae, ●Euphrasia kurdica, Linaria kurdica, Veronica intercedens.*

Siahıda ●-işarə ilə verilən növlər endemlər**,** ○-işarə ilə verilən növlər subendem növlərdir (Azərbaycandan təsvir olunan və əvvəllər endem statuslu olmuş, sonradan Azərbaycandan kənarda da rast gəlinən növlər).